Abdullayeva Gülər Sabir qızı

# H.CAVID VƏ PEYĞƏMBƏR

Romantizmdə dinə maraq romantizmin ümumən keçmişə marağından başlayır. Din romantizmdə keçmişə marağın müstəqil bir sahəsidir. Bəşəriyyətin keçmişində mühüm hadisə olmaq etibarilə din dünyanın böyük romantiklərini zaman-zaman özünə cəlb etmişdir. Dünya romantizm ədəbiyyatında dinlə bağlı mövzular geniş yayılmışdır. «Dini romantik dramlar» adı altında bu ədəbiyyatda ayrıca bölgü də vardır. Romantizmin başqa janrlarında da dini motivə və adlara rast gəlinir. Məsələn, rus romantizmində Puşkinin «Peyğəmbər» şeirini yada salaq. Romantik Puşkinin «Peyğəmbər» əsəri kimi, Cavidin «Peyğəmbər»i də təsadüfi yazılmayıb. Cavidə qədər Məhəmmədə Höte, Volter kimi sənətkarlar da müraciət etmişlər.

Əlbəttə, romantizmin bilavasitə «Peyğəmbər» mövzusuna marağı dinin tarixdəki rolunun inqilabi məzmun, inqilabi xarakter daşımasından irəli gəlir. Cəmiyyətin həyatında baş verən inqilabi hərəkat, dünyagörüşündə geniş miqyaslı təzələnmə və dönüş hallarının romantizm sənətini xüsusi məşğul etdiyi çoxdan məlumdur. Geniş xalq kütlələrini, bəzən bir neçə ölkəni bürüyən tarixi inqilabları romantizm həmişə aludəliklə izləmişdi. Romantizmin dinə marağı, digər tərəfdən, onun teosofiyaya marağı ilə bağlıdır. Teosofiya Allahla bağlıdır. Yunanca teos – Allah, sofiya – bilik, müdriklik deməkdir. Lakin teosofiya kainatın hələ mənimsənilməmiş sehrlərini, intuisiyanı və kəşfi də qəbul edir. Romantizmin teosofiyaya marağı burdan doğur. Dini, Allahı, Peyğəmbəri təbliğ, yaxud tənqid burada məqsəd deyildir. Məqsəd teosofik mistikadır. Romantiklərin nəzərini cilvələndirən o sehrli, intuisiyalı aləmdir.

Budur, aydın və ulduzlu bir gecə, Məkkə yaxındığında Hira dağı ətrafında mağaralar, yalçın qayalar, sərp dərələr, qorxunc uçurumlar… Belə bir məkanda Peyğəmbər qərar tutub. O, fikirlidir, dalğındır. Bu dəmdə mavi-bənövşəyi nurlar içində füsunkar bir mələk göydən enir. Mələklə «Hübuti-Adəm»dən və «Şeyx Sənan»dan sonra indi üçüncü dəfədir ki, qarşılaşırıq. Onun ülviliyi ilahiyyata yaxınlığıdır. Göylərin, ilahiyyətin elçisi Mələk füsunkar bir ahənglə Peyğəmbərə müraciət edir:

Ulu dahi, sən ey böyük rəhbər,
Qalx, oyan! İştə hər tərəf, hər yer,
Həp təbiət dalıb da röyaya,
Cəlb edər ruhu şeirü sevdaya.
Gecə yıldızlariylə pürxülya
Səni dinlər sükut içində fəza…

Peyğəmbər başını qaldırıb heyrət və iztirabla Mələyin kimliyini sorur. Mələk «ayrı olsaq da iştə hər ikimiz, bir rübabın inildəyən səsiyiz» deyir. Onun nə üçün gəldiyini bilmək istəyəndə mələk göyə işarə ilə «ona qaldırmaq istəyirəm səni mən», - söyləyir. Mələk Peyğəmbəri göyə, Haqqın hüzuruna aparmaq istəyir.

Burada üç qeyri-adi surət, üç fövqəlbəşər obraz rastlaşırlar. Peyğəmbər, Mələk və onun təmsil elədiyi Haqq. Bu görüşdə Peyğəmbərlə Mələk bilavasitə özləri, Haqq isə sifariş və fərmanları ilə iştirak edir. Onların hər üçü fövqəlbəşərdir, ölməzdir. Məhz bir də öz fövqəlbəşər obrazları ilə «Peyğəmbər» romantik əsərdir.

Fövqəlbəşərlər təşviş içindədir. Onların təşvişi həyat sarıdan, bəşər övladı sarıdandır. Həyat zülmətdə, insan qəhr olmadadır. Peyğəmbərin qərar tutduğu yer üzü zülməti andırır. Hər tərəf izsiz mağaralar, yalçın qayalar, dərin dərələr. Peyğəmbər ən əvvəl göy üzünü sarmış qaranlıq pərdəni yırtmaq istərdi:

Bu siyah çarşaf ən böyük əngəl,
Uça bilsəydim, iştə, ən əvvəl,
Onu yırtar da, parçalar da həmən,
Qovuşurdum o hüsni-mütləqə mən.

Peyğəmbər «Hüsni-mütləq»dən insan övladına imdad diləyəcəkdir:

Öylə bir əsr içindəyəm ki, cahan,
Zülmü vəhşətlə qovrulub yanıyor.
Üz çevirmiş də tanrıdan insan,
Küfrü həqq, cəhli mərifət sanıyor.
Dinləməz kimsə qəlbi, vicdanı,
Məhv edən haqlı, məhv olan haqsız,
Ah, ədalət, hüquq və hürriyyət…

Burada biz Peyğəmbərin, fövqəlbəşər insanın xalis bəşəri arzularla yükləndiyini görürük. Ədalət, hürriyyət… Bunlar bəşər övladının arzularıdır, xəyallarıdır. Ədalət axtaran Peyğəmbərin yüksəlişi də ədalətin təntənəsi şəklində olmalıdır. «Nərdivanlar yapıb könüllərdən, parla, yüksəl, vücudi-mütləqə sən». Yer üzünü bürüyən zülmət və cəhalət dünyasında Peyğəmbər gərək bütün könülləri şad etməklə «vücudi-mütləq»ə yüksəlib yetsin. Mələklə söhbət zamanı bir Skelet, «piri nədim» özünü təqdim edib deyir ki, o «rəmzi tarix»dir. Onun qucağı dühalar beşiyi olmuşdur. İndi də gəlib ki, Peyğəmbər onu dinləyib ondan «dərsi hikmət» alsın. Skeletin dərsi budur ki, əgər «inqilab istəyirsənsə, kəskin qılınc gərəkdir, ancaq qılıncdadır qüvvət, bundadır haqq, şərəf və hürriyyət». Tarixin rəmzi skelet inqilabı gücdə bilir. Peyğəmbəri də bu yola çəkmək istəyir. Amma Mələk– «Qılıc söz qədər deyil kəskin», Peyğəmbər – «Mən məhəbbət əsiriyəm» deyib etiraz edirlər.

Peyğəmbərin bu sözü əsərin birinci pərdəsində onun ilk mükəmməl monoloqudur. O, sanki özünün kimliyini, hansı amal uğrunda çarpışacağını bildirir:

Mən məhəbbət əsiriyəm… Hər an,

Hər zaman özlərim bir öylə cahan.
Ki bütün kainatı eşq olsun,
Könül uçduqca etila bulsun...

Öylə bir cahan ki, bütün kainatı eşq olsun! Peyğəmbərin özlədiyi belə bir cahandır. O cahandakı könül ucalığıdır. Bunu biz sonralar da görəcəyik ki, əsərdəki Peyğəmbər obrazı dindən daha artıq məhəbbət əsiridir.

Hadisələrin cərəyan etdiyi dövr hələ bütpərəstliyin hakim din sayıldığı illərdir. O hakim dinə qarşı təzəcə ixtişaşlar baş qaldırır. Inqilabi münaqişələr də buradan doğur.

...Məkkədə geniş bir yol. Yolun kənarında bir bütxana, ahıl bir ixtiyar büt yonur. Dükanın önündə satış üçün hazır bütlər qoyulub. Müştərilər yaxınlaşıb gözdən keçirirlər. Onlardan biri cibindən taxtadan yonulmuş bütü çıxarıb ixtiyarın qarşısına atır. Aldığı bütlərin ona heç bir kömək etmədiyini acıqlı söyləyir. Ixtiyar bu dəfə əlində yonduğu bütü tərifləyib müştəriyə təklif edir. Ona «tükənməz səadət verəcəyinə» inandırmaq istəyir. Onları kənardan seyr edən Peyğəmbər həyəcanlanır. Bu, Peyğəmbərin bütpərəstliklə ilk qarşılaşdığı səhnədir. O, göyə doğru-

Ulu tanrı, ey qüdrətli yaradan!
Bu sözlər həp sana qarşı bir üsyan...
Bu sayğısız azğınlara qorxu ver,
Ah, acı da bunlara bir duyğu ver.
Bir göz ver ki, həq nurunu duysunlar,
Bir könül ver doğru yola uysunlar.

Peyğəmbər insanları daşdan, taxtadan yonulmuş yalançı bütlərdən uzaqlaşdırır. «Mənasız bütpərəstlik yolunu unutmaq, əvəzinə bütün məbudların fövqündə parlayan bir haqqa – Tanrıya inam bəsləmək lazımdır».

Bütpərəstlik tərəfdarlarının şüarı isə başqadır: «Üç yüz altmış büt var ikən bir Tanrıya uymaz insan». Romantizm sənəti – hiss sənəti, duyğu sənətidir. Insan hissinin zəngin təkamül dövrü isə dinlə bağlıdır. Qərb romantikləri hisslərin keçmişini araşdırarkən xristianlıq mədəniyyəti ilə romantizm mədəniyyəti arasında çox əlaqə görmüşlər. Qərb romantizminin fəlsəfi əsaslarının hazırlanmasında «yazıçeski» deyilən dindən xristian dininə keçid mərhələsi mühüm rol oynamışdır. Bu zaman sitayişin obyekti və ruhu dəyişmişdir. Cansız və şüursuz fiqurlara, bəzən heyvanlara sitayişdən insanlar canlı və şüurlu varlığa – insana, Isaya sitayişə keçmişlər. Əsrlər boyu cansız fiqurların, şüursuz heyvanların zahiri görkəmi ilə əylənən insanın diqqəti bilavasitə öz həmcinsinə – insana, onun daxilinə, mənəviyyat xəzinəsinə yönəlmişdir.

Təxminən eyni mərhələni Şərq də keçib. «Pâyğəmbər»də biz məhz bütpərəstliklə islamın mübarizəsini və nəticədə ikincinin qələbəsi ərəfəsini görürük. Bütpərəstlikdə duyan və düşünən insanlar – duymaz və düşünməz cansız taxta fiqurlara pənah gətirirdi. Islam dini bütpərəstliyə qarşı çıxmaqla duyan və düşünən insanı cansız taxta parçalarına sitayişdənuzaqlaşdırdı. Sitayişin istiqamətini insanın öz həmcinsinə – xristianlığın və islamın insan hisslərinin təkamülündə belə tarixi rolu olmuşdur. Romantizmin dinə marağının mənbəyi bir də bundadır.

Cavidin əsərdə qoyduğu problem – Peyğəmbər və ona kor-koranə sitayiş etmək deyildir; Peyğəmbər vasitəsilə ali gözəlliklərə – duyğu ilə, düşüncə ilə dərk olunan gözəlliyə sitayiş problemidir:

Əvət, arif düşünür, haqqı bulur,
Aqibət kəndisi bir tanrı olur.

Fəhmlə duyan, düşünən haqqı bulur. Haqqı bulan kəsin özü nəticədə bir tanrı olar. Peyğəmbərin tanrı sandığı kimdir? Haqqı bulan, haqqa yetən, özünü dərk edən insan! Ona görə o deyir ki, 360 bütdənsə hər kəs öz daxilinə boylanmalıdır. Haqqı, ədaləti hər kəs öz batinində aramalıdır. Böyük romantik Cavidi Peyğəmbər mövzusunda düşündürən məsələlər bunlardır.

Bütpərəstliklə çəkişmə asan olmur. Bütpərəstliyin tərəfində duran rəislər Peyğəmbəri açıq təhqirə keçir, onu dəli, sərsəm şair hesab edirlər. Peyğəmbər onların rişxəndinə qarşı:

Şairim, bəslədiyim sidqü səfa,
Çırpınıb izlədiyim nuri-dəha.
Mən fəqət hüsni-xüda şairiyim,
Yerə enməm də, səma şairiyim.

- deyərək, «şair» sözündə tamamilə özgə məna görür. Öz yolu və amalı ilə Peyğəmbər məhz şairə bənzəyir. Şair kimi o da sidqlə ürəyində xoş arzular gəzdirir, nurlu diləkləri izləyir, ruhunu əzəmətli fikirlər məşğul edir.

Ümumiyyətlə, romantiklərin təsəvvüründə yer üzünün ülvi varlığı Şair Peyğəmbərdir. Dünyanın ən böyük romantikləri şairliklə peyğəmbərlik arasında yaxınlıq, oxşarlıq axtarıb tapmışlar. (Puşkindən Novalisə qədər). Böyük romantik şairlər özlərini də «peyğəmbər» adlandırmışlar. Peyğəmbər dində nədirsə – romantik şair sənətdə odur.

Peyğəmbər «səma şairi»dir. O, elə bir şairdir ki, xudanın hüsnünü vəsf edir. Yeri gəlmişkən, bu məşhur monoloqda son misranın başqa variantı da ehtimal olunur. «Yerə ensəm də səma şairiyəm» şəklində. Hər iki halda əsas məna dəyişmir. Bütün bunlarla yanaşı burada Peyğəmbərlə şair arasında çox uyğun bir cəhət ifadə olunmuşdur. O da Peyğəmbərdə öz idealına qarşı hüdudsuz şair vurğunluğudur:

Çünki mən aşiqi-divanəsiyəm,
Mən o hüsnün dəli pərvanəsiyəm.

Demək lazımdır ki, romantiklər dini məhəbbətdən ayırmırlar. Onların izahınca din adlandırılan şey bünövrədən məhəbbətdən başlayıb. Din insanın saflığa, müqəddəsliyə ilkin təbii meylinin bir forması kimi meydana gəlib. Dindarlıq ilkin mənasında saflığa, müqəddəsliyə vurğunluqdur. Dini mövzuda romantik poeziyanın görkəmli

nümayəndəsi Verner «din» və «məhəbbət» sözlərini eyni mənalı sözlər təki şərh edirdi.

Dünya romantizminin görkəmli nümayəndələrindən biri olmaq etibarilə Cavid də din deyilən şeyin mahiyyətində məhəbbəti arayır:

Ən kiçik zərrə, ən böyük aləm,
Tanrı eşqilə rəqs edib duruyor.
İncə bir rəmzdir, o pək mübhəm.

Peyğəmbərin sonra dedikləri onun «tanrı eşqi»nin mənasını və istiqamətini bir qədər aydınlaşdırır:

Nerdə parlarsa haqq, şərəf, vicdan,
Eyilik, doğruluq, gözəllik, inan!
Orda var sevgi, orda var iman;
Orda var, şübhəsiz böyük yaradan!

Demək, «tanrı eşqi» - haqq eşqi, şərəf eşqi, vicdan eşqi deməkdir. Peyğəmbər – xudanın divanəsi, romantik şair – haqqın divanəsi və pərvanəsidir:

Qapanın səcdəyə hörmətlə bütün,
O böyük eşqlə daim öyünün.

O «böyük eşq» hansı eşqdir? O, «böyük eşq» adi, keçici eşq deyildir, əbədi eşqdir. O, «böyük eşq» məhdud eşq deyildir. İntəhasız eşqdir. Burada konkret olaraq o «böyük eşq» - haqq, gözəllik eşqidir. Haqq, gözəllik və intəhasız eşq. Adiliklərin fövqünə qaldırılan bunlardır.

«Haqq sevgisi» tamam mücərrəd təbiətli bir anlayış deyildir. Peyğəmbərin, fövqəlbəşərin daşıdığı həmin sevginin arxasında bəşərin mənəvi ehtiyacları dayanıb. Haqq sevgisi adi insanın, bəşər övladının şirin xəyallarından başlayır. O şirin xəyallar şərəf, vicdan, yaxşılıq, doğruluq, gözəllikdir. Bunların hər biri yer oğlunun istəkləridir. Yer oğlunun xeyirxahlıq və gözəllik keyfiyyətlərinə malik bu mənəvi ehtiyaclarının hamısı vahid ülvi bir zirvəyə yönəlir. Çünki adi qavrayış dairəsindəki bu xeyirxahlıq və gözəlliklərdən yüksəkdə bir də ülvi bir xeyirxahlıq və gözəllik vardır – Haqq.

Haqq – romantiklərin axtardığı ali ədalətdir, həqiqətdir, o biri tərəfdən, Allahın adlarından biridir. «Allah» sözünün sinonimləri içərisində romantiklərin nədənsə ən çox can atdıqları «haqq» sözüdür. Elə bu əsərdə Peyğəmbərin də ən çox işlətdiyi kəlmədir. Haqq anlayışı özündə gözəlliyi də ehtiva edir. Romantiklər haqq və ədalətdə gözəlliyi xüsusi görüb seçirlər. Özü də geniş mənada gözəlliyi, adi idrakdan yüksəkdəki mütləq gözəlliyi, əsl estetik məzmunlu gözəlliyi. Haqqın özü qədər ali, haqqın özü qədər müqəddəs gözəlliyi! Bütün bu «dini tematika»da şairə məhz özünün etik və estetik gözəlliyini ifadə etmək üçün vasitə kimi gərək olub. Dində fövqəlbəşər – Allah və Peyğəmbərdir. Sənətdə fövqəl ideal – şairdir. Bir romantik kimi, Cavidi daha çox məsələnin bu ikinci tərəfi – sənətin fövqəl idealları maraqlandırır.

Yer üzünü sarmış fənalıqlardan dərin düşüncəyə dalmış Peyğəmbərə yenə mələk yaxınlaşır. Mələk Peyğəmbəri ümidsizlikdən mübarizəyə ruhlandırır:

İnan ümiddir qayələr qayəsi,
Acıdır ümidsizliyin meyvəsi.
Ümidsiz bir insan, ümidsiz millət
Səfil və bədbəxt olur ən nəhayət.

Mələk Peyğəmbəri ümidsizlikdən uzaqlaşdırır və gedərkən «Heç qorxma, haqq sözü söylə», «yolun haqdır» deyib çəkilir. Peyğəmbər çəkilib gedən Mələyə «xayır susmam, gädər haqqı söylərim» - deyır. Bu arada gələn Skelet isə «tanrı» məfhumunu tarixin gözü ilə, bizə məlum təsəvvürlərlə şərh edir: «Tapındığın ulu tanrı sən özünsən, o, səndən ayrı deyildir. Sən o küllün cüzisən. Tanrı dediyin rənglərdən, sifətlərdən uzaqdır, hər dindən, təriqətdən uzaqdır. Hər mühit onu bir çeşit yaratmış, hər kəs ona bir ad qoymuşdur…»

Skelet Peyğəmbərə qılınc təklif edir:

İnqilab istiyormusan, mana bax!
İştə kəskin qılınc, kitabı burax!
Qılınc nə üçündür?
Xəstə bir üzvə bənzər amili-şər,
Kəs də bulsun şəfa vücudi-bəşər.

Peyğəmbər bu dəfə qılıncı alır. Mənalı və kəskin bir ahənglə:

Əvət, ən doğru, ən gözəl ayin:
Əhli-vicdanə busə, xainə kin…

Əhli-vicdan – haqqı sevəndir. Xain – insan oğluna, öz həmcinsinə inam gətirməyəndir. Peyğəmbər kitabı və qılıncı məhz ona görə götürür ki:

Açar ancaq bu kitab el gözünü,
Siləcəkdir bu qılınc zülm izini.

Daha bir romantika və romantik üslub əlamətini Cavidin qadına münasibətində sezirik. Peyğəmbərin məşhur «qadın günəş, cocuq ay, nuru ay Günəşdən alır» misralı monoloqu bütünlükdə şairin qadına münasibəti üçün səciyyəvidir. Lakin qadın öz gözəlliyi üçün xilqətə minnətdar olmalıdır. Təsadüfi deyil ki, Şəmsa «bilməm ki, şu qaranlıq, şu əngin boşluqda nə var», «Mən istərəm qəlbindəki tanrı eşqi unudulsun, könlümdə çırpınan sevgi o eşqin

yerinə dolsun» deyəndə Peyğəmbər hiddətlənir. Qadın sevgisinin haqqa bəslənən məhəbbətin qarşısında heçliyini söyləyir.

Hadisələr sona yaxınlaşdıqca bütün mətləblər yenə o «böyük eşq» -haqq eşqi problemi ətrafında cəmləşir. İslamın qələbəsi münasibətilə toplaşan camaatın və təqdisə gəlmiş o biri dinlərin nümayəndələri qarşısında Peyğəmbərin son monoloqu «haqqı sev, haqsızı dəf et, zira yaraşır haqqa məhəbbət, hörmət» sözləri və ideyası ilə tamamlanır. Beləliklə, əsərin haqq eşqi üzərində bünövrələnmiş romantik strukturu axıradək həmin bünövrə üzərində yüksəlmiş olur və onda Peyğəmbər «Məhəbbətdir ən böyük din» fəlsəfəsi qənaətinə gəlir.

Peyğəmbər – romantik qəhrəmandır. Peyğəmbərin Allah axtarışı – romantik qəhrəmanın həqiqət axtarışıdır. Onun məhəbbəti də öz mahiyyəti etibarilə platonik məhəbbət, mənəvi məhəbbətdir. Belə məhəbbətin başlanğıcını biz «Şeyx Sənan»da görmüşdük. Orada da din nümayəndəsi olan şeyx qəlbində «eşqi-ruhani» gəzdirirdi. Påyğəmbərin «məhəbbətdir ən böyük din» qənaəti Sənanın həmin mənəvi eşq konsepsiyasının davamıdır.


**Ədəbiyyat:**

1.H.Cavid. Əsərləri. Beş cilddə.III cild. Lider nəşriyyatı. Bakı-2005
2.Cavidşünaslıq. Bakı, Elm 2005.
3.V.Osmanlı. Azərbaycan romantizmi. Birinci cild. Bakı-Elm-2010
4.G.Qafarova "Peyğəmbər" dramında tarixi həqiqət və romantik vüsət. Elmi axtarışlar. XVIII. Bakı, Səda-2006
5.Ş.Sadıqov "Peyğəmbər" dramına yeni baxış. Bakı, "Elm" qəzeti № 15-16



*Açar sözlər: poeziya, lirika, şair*
*Ключевые слова: поезие, лирика, поет*
*Keywords: poetry, lyrical, poet*



**Резюме**

Г.Джавид является одним из видных представителей Азербайджанской романтичной литературы. Его религиозно мистическая работа – «Пророк» посвящена Пророку Мухаммеду. Период, в котором происходили события – это годы идолопоклонства. Образ Пророка, который был изображен в его творчестве, является пленником любви больше, чем религии. Будучи одним из видных представителей мирового романтизма, Джавид, в сущности религии ищет любовь.



**Summary**

H.Cavid is the most magnificient representative of romantic literature. His literary religious and mystic piece dedicated to Hz. Muhammed. The events in the piece happened still the age of domination of paganism. The character of prophet stood more affectation than the religion. H.Cavid looked for affectation in entry of religious matter in his piece.


*Rəyçi: prof.İfrat Əliyeva*

Dil və ədəbiyyat/Beynəlxalq elmi-nəzəri jurnal.- 2017.- №4 (104).- S. 286-289.